# Sabitliyə, quruculuğa aparan yol

***15 iyun - Milli Qurtuluş Günü xalqımızın və dövlətimizin həyatında ciddi dönüş yaradan, şanlı tariximizdə dərin iz qoyan əhəmiyyətli ictimai-siyasi hadisədir. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımızın yaşadığı ağrılı-acılı günlər, düşdüyü acınacaqlı durum hakimiyyətə ölkədə və dünyada baş verən siyasi prosesləri təhlil etmək və nəticə çıxarmaq, həmçinin cəsarətli addımlar atmaq qabiliyyətində, cəsarətində olan peşəkar qüvvələrin gəlməsini zəruri edirdi. O dövrdə idarəolunmaz vəziyyətə düşmüş dövlətin sükanı arxasına keçmək, qardaş qırğınının qarşısını almaq böyük risk, siyasi səriştə tələb edirdi. Heç bir siyasi təcrübəsi olmayan başıpozuq bir qrupun yarıtmaz idarəçiliyi üzündən süquta uğramaq təhlükəsi ilə üzləşən dövlətçiliyimiz, itirilməkdə olan müstəqilliyimiz məhz Ulu öndər Heydər Əliyevin böyük məharəti sayəsində qorunub saxlanıldı, möhkəmləndi.***

Ölkəmizin sayılıb-seçilən ziyalıları, ictimai-siyasi xadimləri Ulu Öndər Heydər Əliyevin ətrafında birləşərək müstəqil Azərbaycan dövlətinin məhv olmasına, parçalanmasına imkan vermədilər. Dahiliyin, vətənpərvərliyin, cəsarətin, siyasi səriştənin bütün vacib elementlərini özündə cəmləşdirən Ümummilli liderin missiyasının əsas hədəfi bəlli idi. Azərbaycan dövlətini və onun müstəqilliyini qorumaq, xalqı xilas etmək.

Ulu Öndər Heydər Əliyev hələ sovet dönəmində Azərbaycana rəhbərlik edəndə iqtisadiyyatın, mədəniyyətin, təhsilin və digər sahələrin bütün istiqamətlərində inkişafa nail olmuşdu. Həyatı bahasına daim Azərbaycan xalqını, dövlətin milli maraqlarını müdafiə etmişdi. Güclü dövlət güclü kadr potensialının yaradılmasından keçir prinsipini daim rəhbər tutan Heydər Əliyev məktəblilərin, universitet tələbələrinin təhsilinə hər zaman dəstək vermiş, onların xarici ölkələrdə təhsilini təmin etmişdi. Milli maraqları qoruduğu üçün sovet dövründə Moskvada Heydər Əliyevə münasibət birmənalı deyildi. Ona millətçi damğası vurmağa çalışırdılar. Təəssüf ki, müəyyən qüvvələr Ulu öndərin hələ sovet dövründə başlatdığı mübarizənin, fəaliyyətin başa çatdırılmasına imkan vermədilər. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa vermişdir. İki həftə keçməmiş erməni millətçiləri və onların himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan qoparılıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmış və Azərbaycan xalqının faciələri o gündən başlamışdır. Əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər.

Ulu öndər ikinci dəfə Bakıya gələndə ilk işi ölkədəki xaosun, qardaş qırğınının, separatçılığın, aclığın, səfalətin qarşısını almaq oldu. O, həyatını təhlükə altında qoyaraq hərc-mərcliyin tuğyan etdiyi Gəncəyə yollandı və orada baş qaldırmış qiyamın qarşısını aldı. Təbii ki, müstəqilliyin ilk illərində böyük siyasi xadimi respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycan 20 Yanvar, Xocalı faciələrini yaşamaz, Laçın, Şuşa xəyanətlərinin qurbanı olmaz, ölkə ərazisinin 20 faizi işğal edilməz, müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməzdi.

Ümummilli Lider Heydər Əliyevin yürütdüyü siyasət qısa zaman ərzində nəticə verdi, ölkəmizin qüdrəti, nüfuzu artdı, Silahlı Qüvvələrimiz gücləndi, dövlət quruculuğunda ciddi addımlar atıldı. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyanın ən nüfuzlu, güclü ölkələrindən birinə çevrilib. Cənubi Qafqaz regionunun lider dövləti olan ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaşdır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızı 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında 24 saatlıq antiterror tədbirləri nəticəsində tam azad etdi, ərazi bütövlüyümüz bərpa olundu. Prezident İlham Əliyev bununla ata vəsiyyətini yerinə yetirdi, onun missiyasını tamamladı. Bu gün üçrəngli Azərbaycan bayrağı Şuşada, Xankəndidə, bütün rayonlarımızda dalğalanır. Ulu Öndərin azərbaycançılıq ideologiyası ölkəmizdə sülh və sabitliyin hökm sürməsinin şərtləndirir. 15 iyun Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış taleyüklü əhəmiyyəti olan günlərdən biridir, tariximizin şanlı, qürurlu səhifəsidir. Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması, dünya miqyasında müstəqil siyasət həyata keçirən dövlət kimi tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması məhz Heydər Əliyevin sayəsində mümkün oldu. 15 iyun 1993-cü il müstəqil Azərbaycanı sabitliyə, inkişafa aparan yolun başlanğıcıdır.

**Mehriban VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**